# Akademik Musa Əliyevin Azərbaycan elmində əvəzsiz xidmətləri olub

Mayın 15-də Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) görkəmli alim, tanınmış ictimai xadim, akademik Musa Əliyevin 110 illiyinə həsr olunmuş yubiley tədbiri keçirilib. AZƏRTAC xəbər verir ki, tədbir iştirakçıları əvvəlcə ikinci Fəxri xiyabanda akademik Musa Əliyevin məzarını ziyarət edib, önünə əklil və gül dəstələri qoyublar.

Akademiyanın əsas binasında təşkil olunan tədbirdə AMEA-nın prezidenti akademik Akif Əlizadə Prezident İlham Əliyevin "Akademik Musa Əliyevin 110 illiyinin qeyd edilməsi haqqında" 2018-ci il 21 fevral tarixli sərəncamınının elmimizə və alimlərimizə dövlət qayğısının daha bir göstəricisi olduğunu vurğulayıb.

Akademik Musa Əliyevin Azərbaycanda geologiya elminin inkişafına fundamental tədqiqatları ilə mühüm töhfələr verdiyi, yüksəkixtisaslı kadrların hazırlanmasında xüsusi xidmətlər göstərdiyi, onun akademiyanın prezidenti kimi respublikada intellektual potensialın formalaşdırılması və elmin perspektivli sahələrinin təşkili istiqamətində mühüm nailiyyətlər əldə etdiyi diqqətə çatdırılıb.

A.Əlizadə görkəmli alimin həm də böyük ictimai xadim olduğunu vurğulayıb. O deyib: "Musa Əliyev müxtəlif illərdə SSRİ və Azərbaycan Ali sovetlərinin deputatı, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü və katibi, Azərbaycan Nazirlər Soveti sədrinin müavini, Azərbaycan Plan Komitəsinin sədri, keçmiş Ümumittifaq "Bilik" Cəmiyyətinin Azərbaycan şöbəsinin sədri, Lenin Mükafatları Komitəsinin və Ali Attestasiya Komissiyası plenumunun üzvü, Sovet-Pakistan Dostluq Cəmiyyətinin vitse-prezidenti olub. SSRİ Neft Sənayesi Nazirliyinin kollegiyası tərəfindən "Fəxri neftçi" adına layiq görülüb. Neft sənayesində çoxillik səmərəli elmi fəaliyyətinə görə adı SSRİ Neft Sənayesi Nazirliyinin "Fəxri kitabı"na daxil edilib. Ümumittifaq Paleontoloji Cəmiyyətin fəxri üzvü seçilib".

AMEA-nın rəhbəri görkəmli alimin çoxillik məhsuldar elmi-təşkilati, pedaqoji və ictimai fəaliyyətinin yüksək qiymətləndirildiyini, onun orden, medal və fəxri fərmanlarla təltif olunduğunu, ölümündən sonra 1989-cu ildə "Azərbaycanın təbaşir faunası" monoqrafiyasına görə Azərbaycan Dövlət Mükafatı laureatı adına layiq görüldüyünü deyib.

A.Əlizadə görkəmli alimlə bağlı xatirələrini bölüşüb: "1956-cı ilin payız aylarında mənə məlumat gəldi ki, akademiyanın ovaxtkı prezidenti akademik Musa Əliyevin rəhbərlik etdiyi Geologiya İnstitutunda iki vakant ştat vahidi var və ora gənc mütəxəssislər axtarır. Həmin vaxt akademiyaya işə qəbul olunmaq çox çətin məsələ idi. Musa Əliyevlə görüşdüm, söhbət etdik. Məni işə qəbul etdi".

Musa Əliyevin görkəmli paleontoloq olduğunu deyən A.Əlizadə onun laboratoriyasında elmi istiqamətini bir daha təbabətlə bağlaya bildiyini söyləyib.

A.Əlizadə görkəmli alimin həm akademiyanın prezidenti, həm də laboratoriyanın rəhbəri kimi ilk addımından ona qayğı göstərdiyini, inandığını bildirib. Musa Əliyevin Azərbaycan elmində əvəzsiz xidmətləri olduğunu vurğulayan AMEA rəhbəri onun xatirəsinin hər zaman yaddaşlarda yaşayacağını söyləyib.

Tədbirdə AMEA-nın Yer Elmləri Bölməsinin akademik-katibi, akademik Fəxrəddin Qədirov, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru professor Mustafa Babanlı, Bakı Dövlət Universitetinin rektoru akademik Abel Məhərrəmov, bu ali məktəbin faydalı qazıntılar kafedrasının müdiri akademik Vasif Babazadə, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun tarixi etnoqrafiya şöbəsinin müdiri akademik Teymur Bünyadov və başqaları akademik Musa Əliyevin həyat və elmi fəaliyyətindən danışıb, görkəmli alimlə bağlı xatirələrini bölüşüblər.

ADA Universitetinin rektoru professor Hafiz Paşayev ailə üzvləri adından çıxış edərək alimlə bağlı xatirələrini bölüşüb, yığıncağın təşkilinə görə AMEA-nın rəhbərliyinə, həmçinin tədbir iştirakçılarına təşəkkürünü bildirib.

Akademik Musa Əliyevin həyat və yaradıcılığına həsr olunmuş sənədli film nümayiş etdirilib.